*Günel Əlizadə*[*]

# BMT sistemində islahatlar müasir tələblər və çağırışlar müstəvisində: təklif olunan modellər və konsepsiyalar

***Annotasiya***

*İkinci dünya müharibəsindən sonra BMT beynəlxalq hüququn inkişafında və siyasətdə mühüm rol oynamağa başladı. Dünyada baş verən verən yeniliklər, siyasi vəziyyətin dəyişməsi, ölkələrarası əlaqələrin genişlənməsi, eləcə də qurumun geniş səlahiyyətlərə və böyük ərazini əhatə etməsi ilə əlaqədar olaraq institutlara və orqanlara bölünməsi onun nizamnaməsində dəyişikliklərə ehtiyac yaratmışdır. Məqalədə məhz nizamnamə və BMT sistemində islahatlar aparılması üçün təklif olunan müxtəlif konsepsiyalar və təkliflərdən danışılacaq və BMT-nin fəaliyyətinə mane olan səbəblərdən bəhs ediləcəkdir. Məqalədə BMT modelində islahatların aparılmasının əhəmiyyətindən və islahatların aparılması üçün verilən təkliflərin bir-biri ilə ziddiyətindən danışılacaqdır.*

***Abstract***

*After World War II UN started to play an important role at the politics and the international law. Innovations, changing of political situation, development of interstate relations also division of the organization to the branches and institutes due to the broad scope of authority and encompassment of large territories have created the need to adjustments at the Charter of UN. Through the article, different conceptions and suggestions for the reformation of the Charter and the UN system and the reasons which obstruct the activity of UN will be discussed. The importance of reformations at the UN Model and the contradictions of suggestions for the reformation of UN Model will be mentioned in the article.*

## MÜNDƏRİCAT

Giriş ........................................ 108
I. BMT qlobal problemlərin həllində əsas aktor kimi ........ 108
II. BMT Nizamnaməsi və onun islahatların aparılmasında əhəmiyyəti .... 110
III. BMT sistemində islahatlarla bağlı model və konsepsiyalar ........ 116
Nəticə ........................................ 119

[*] Bakı Dövlət Universiteti, Beynəlxalq hüquq ixtisası üzrə 2-ci kurs magistr.

# Giriş

Müasir beynəlxalq hüququn konstitusiyası adlandırılan BMT Nizamnaməsi özündə beynəlxalq hüquq qaydasının əsas məqsəd və prinsiplərini təsbit etməklə yanaşı, onlara imperativ *(jus cogens)* qüvvə də vermişdir. Məqsəd baxımından BMT-nin yaradılması sülhün və təhlükəsizliyin təmin olunması ilə bağlı olmuşdur. Bu məqsəd indi də öz aktuallığını qoruyub saxlamaqda davam edir. XX əsrin sonları XXI əsrin əvvəllərində beynəlxalq münasibətlər sistemində köklü dəyişikliklərin baş verməsi, geopolitik vəziyyətin dəyişməsi və dövlətlərarası münasibətlərdə baş verən yeniliklər, qloballaşma və getdikcə dərinləşən inteqrasiya prosesləri beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması prosesinə yenidən nəzər salmağı gündəmə gətirmişdir. Təbii ki, bu kontekstdə ümumi sülhün və təhlükəsizliyin təmin olunmasının universal mexanizmi kimi çıxış edən Birləşmiş Millətlər Təşkilatının rolu və fəaliyyəti diqqət mərkəzindən kənarda qala bilməz. BMT-nin fəaliyyətinə xüsusi təsir onun nizamnəmisinin məzmunu və ona edilən düzəlişlərlə bağlıdır. Məqalədə, BMT sistemində islahatlar, onların zəruriliyi, mövcud modellər və konsepsiyaların məzmunu haqqında məsələlərə aydınlıq gətirilməsinə cəhd edilmişdir

# I. BMT qlobal problemlərin həllində əsas aktor kimi

Bəşəriyyət bizim eranın üçüncü minilliyinin tarixi səhifələrini yazmaqda davam edir. Belə bir şəraitdə gələcəyə nəzər salmaq, onun necə olacağını izah etmək arzusu hiss olunacaq dərəcədə xüsusi əhəmiyyət kəsb edir. XXI əsr özünün gözlənilməyən hadisələri ilə keçən tarixi proseslərdən əhəmiyyətli dərəcədə fərqlənir. Bunu beynəlxalq həyat hadisələri bir daha təsdiq edir. Belə ki, sənaye əsrini informasiya əsri əvəz etmiş, bir növ yeni minillik qloballaşma mərhələsinə daxil olmuşdur. Lakin o, keçən yüzilliklərin əbədi problemlərindən heç də azad ola bilməmişdir. XXI əsr beynəlxalq təhlükəsizliyə «*köhnə təhdidlərlə*» yanaşı, keyfiyyət baxımından «*yeni təhdidlər*» paketini də təqdim etmişdir. Sovetlər Birliyinin dağılması, dünyanın siyasi mübarizə səhnəsində iki qütblüyün qismən də olsa zəifləməsi, Qərb və Şərq arasında ideoloji mübarizənin sona yetməsi, bununla belə dondurulmuş bir sıra problemlərin ön plana çıxmasına zəmin yaratdı. Bu gün belə “yeni təhdidlər” sırasına: kütləvi qırğın silahlarının yayılması, separatizm meyillərinə əsaslanan milli-etnik münaqişə ocaqlarının sayının artması, beynəlxalq terrorizm, müəyyən coğrafi regionların təbii resurslarına (xüsusən, neft və qazla zəngin olan ərazilərə münasibətdə) nəzarət uğrunda

mübarizə və s. böhranlı hadisələr daxildir.[1] Təbii ki, belə qlobal problemlərin qarşısının alınması, onların müəyyən nizam-tərəziyə salınması, hesab edirik ki, bu gün beynəlxalq birliyin qarşısında duran ən prioritet məsələlərdən biridir.

*Qarşıya belə bir sual çıxır*: hansı beynəlxalq təşkilat və ya hərbi-siyasi qurum yuxarıda qeyd olunan təhlükələrin qarşısını almaq qabiliyyətinə malikdir və eyni zamanda bu məqsədə xidmət edəcək yeni bir xüsusi hüququn (məsələn, dövlətüstü hüququn) yaradılmasına ehtiyac varmı? Əslində bu sualı birmənalı şəkildə cavablandırmaq qeyri-mümkündür. Ona görə ki, beynəlxalq təhlükəsizlik üçün qorxu törədən köhnə təhdidlərdən yeni təhdidlər həm münasibətlərin xarakteri və məzmununa görə, həm də münaqişə iştirakçılarına görə fərqlənir. Bir növ belə xarakterli münaqişələrin tərəfi qismində qeyri-dövlət aktorları, məsələn: ekstrimist dini cərəyanlar, cinayətkar qruplar, ən müxtəlif strukturlara nüfuz etmiş transmilli cinayətkar şəbəkələr, motivi məlum olmayan terror birləşmələri, etnomədəni klanlar və s. çıxış edir. Başqa sözlə desək, belə münaqişələrdə mübarizə motivi məlum olmayan və ya motivi çətin dərk edilən «yeni döyüşçülərə» qarşı aparılır.[2] Təbii ki, belə bir vəziyyətdə təhlükəsiz dünya haqqında danışmaq olduqca çətin və məsuliyyətli bir fəaliyyət tələb edir. Müasir beynəlxalq münasibətlərin real mənzərəsi göstərir ki, bir növ dövlətlər bəşəriyyətin min illər boyu əldə etdiyi maddi və mənəvi dəyərlərin, daimi sülhün və təhlükəsizliyin üstündən xətt çəkərək gücə, müharibə hüququna qayıtmağa cəhd göstərirlər. Başqa sözlə, milli maraqlar beynəlxalq dəyərləri üstələməyə cəhd edərək beynəlxalq qanunlara hörmətsizlik edirlər, baxmayaraq ki, müasir beynəlxalq hüquq sülhün və təhlükəsizliyin təmin olunmasını ən qiymətli dəyər hesab edir və onun qorunub saxlanılmasını BMT Nizamnaməsi də daxil olmaqla, bütün beynəlxalq razılaşmaların ümdə vəzifəsi hesab edir.

Biz yuxarıda verilən suala BMT-nin praktiki rolu və onun Nizamnaməsinin müddəaları kontekstində cavab verməyə çalışacağıq. BMT bütün dünyada sülhün və təhlükəsizliyin qorunub saxlanması və dövlətlər arasında əməkdaşlığın inkişaf etdirilməsi məqsədi ilə yaradılmış universal beynəlxalq təşkilatdır. Professor Lətif Hüseynovun dili ilə desək, BMT-nin özünün xüsusi

[1] Rahim K. Məmmədov, *Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) əsas məqsəd və istiqamətlərinin daxili transformasiyası XXI əsrin yeni təhlükələri kontekstində*, 8 Diplomatiya və hüquq 1, 7-11 (2007).

[2] Theodor Schweisfurth, *Breschnew-Doktrin als Norm des Volkerrechts?,* 21 Aussen-politik 523, 523–38 (1970).

statusunu, siyasi çəkisini və beynəlxalq həyatdakı rolunu, Nizamnamənin xüsusi növ *(sui generis)* beynəlxalq müqavilə olduğunu və onun hüquqi qüvvəsini nəzərə alaraq, Nizamnaməni beynəlxalq birliyin Konstitusiyası adlandırmaq olar.[3]

## II. BMT Nizamnaməsi və onun islahatların aparılmasında əhəmiyyəti

BMT Nizamnaməsi ilk beynəlxalq hüquqi aktdır ki, o, beynəlxalq hüquq qaydasının əsas məqsəd və prinsiplərini təsbit etməklə yanaşı, onlara imperativ *(jus cogens)* qüvvə də vermişdir. Təbii ki, bu kontekstdə ümumi sülhün və təhlükəsizliyin təmin olunmasının universal mexanizmi kimi çıxış edən BMT-nin rolu və fəaliyyəti diqqət mərkəzindən kənarda qalmaya bilməz.

Etiraf edək ki, müasir dövrdə bir sıra güc mərkəzlərinin qeyri-kostruktiv fəaliyyəti nəticəsində BMT kimi nüfuzlu təşkilatın mövqeyinə və roluna dair skeptik baxışlara və yanaşmalara rəvac verilmişdir. Obrazlı desək, biz bu araşdırmada BMT-nin roluna və mövqeyinə pozitiv və neqativ baxışlar müstəvisindən münasibət bildirməyə cəhd göstərəcəyik. BMT Nizamnaməsi ilə tanış olan istənilən şəxs həmin sənəddə demokratik, sabit və stabil bir beynəlxalq birliyin formalaşmasını arzu edən və onu şərtləndirən müddəaların şahidi olur. Deməli, bu dəyərlər indi də qüvvədə qalmaqda davam edir, lakin bu dəyərlərin təminatı mexanizmində zəruri islahatların aparılmasına ehtiyac var, amma bütün dövlətlərin maraqlarına cavab verilən müstəvidə.

Məsələn, BMT Baş Assambleyasının 2010-cu ildə keçirilən 65-ci sessiyasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış edərək qeyd etmişdir ki, Azərbaycan dünyada ardıcıl inkişafda, əsas insan hüquqları və azadlıqlarının, beynəlxalq sülhün və təhlükəsizliyin təmin olunmasında BMT-nin mərkəzi rolunu qəbul edir. BMT güclü və dünyanın istənilən yerində mürəkkəb qlobal problemləri həll etməyə qadir olmalıdır. Azərbaycan dağıdıcı müharibə və işğaldan əziyyət çəkən ölkə kimi hesab edir ki, beynəlxalq normalar və mehriban qonşuluq, dostluq və əməkdaşlıq siyasətini yürütmək zəruridir. Prezident İ. Əliyev qeyd etmişdir ki, Azərbaycan və Ermənistan arasında silahlı münaqişənin əvvəlki kimi davam etməsi beynəlxalq və regional təhlükəsizliyə ciddi təhlükə yaradır. Şübhəsiz ki, bu

[3] Lətif H. Hüseynov, Beynəlxalq hüquq 125 (2012).

problemin həllində BMT müstəsna rol oynaya bilər.[4] Belə bir oxşar fikir BMT-nin keçmiş Baş Katibi Pan Gi Mun tərəfindən də bir neçə il bundan öncə səsləndirilmişdir. O, öz çıxışında qeyd etmişdir ki, bu Təşkilatda zəruri islahatların keçirilməsinin vaxtı çatmışdır, lakin bu işdə hələ ki, konsensus əldə etmək mümkün olmamışdır. Xüsusən, o, Təhlükəsizlik Şurasının (TŞ) və digər orqanların islahatı ilə bağlı mürəkkəb məsələlərin olmasını etiraf etmiş, lakin bununla belə, islahatların aparılmasının heç kimdə şübhə doğurmamasına əminlik ifadə etmişdir, çünki BMT-nin yaranmasından artıq 60 ildən çox bir vaxt keçmişdir.[5] 27 iyun 2005-ci il tarixində Moskvada "Qələbənin 60 illiyi, Birləşmiş Millətlər Təşkilatının yaradılması və beynəlxalq hüquq"-a həsr olnumuş Beynəlxalq konfransda Rusiya Federasiyasının Xarici işlər naziri S.V.Lavrov öz çıxışında haqlı olaraq qeyd etmişdir ki, BMT dövlətlərin daha təhlükəsiz və demokratik dünya səylərini birləşdirməyə qabil olan əsas forumdur və onun inkişafı özünün dinamikliyi ilə şərtlənməli və müasir beynəlxalq münasibətlər sistemində baş verən əhəmiyyətli dəyişikliklərə *(yeni çağırışlara)* çevik şəkildə adaptasiya olunmalıdır. Ən əsası ona görə ki, BMT indinin özündə də müasir beynəlxalq hüququn formalaşmasında və inkişafında mühüm rol oynayan nüfuzlu bir təşkilatdır.[6] Beynəlxalq hüquq qaydasının əsasını formalaşdırmış BMT Nizamnaməsində nəzərdə tutulan dəyərlərin və müddəaların müasir dövrün dəyişən şəraitinə uyğunlaşdırılması və daha da təkmilləşdirilməsi tələbi digər hüquq və beynəlxalq münasibətlərə həsr olunan ədəbiyyatlarında da müdafiə olunur.[7] Qeyd olunan bu əsərlərin hər birində BMT Nizamnaməsi beynəlxalq birliyin əsas qanunu, yəni onun konstitusiyası qismində nəzərdən keçirilir. Məhz bu Nizamnamə beynəlxalq münasibətlər tarixində ilk dəfə olaraq müasir beynəlxalq hüququn və xarici siyasətin əsas məqsəd və prinsiplərini möhkəmləndirmiş oldu.[8] Bu gün vaxtı çatmış vəzifə ondan ibarətdir ki, BMT-nin və onun əsas orqanlarının səmərəliliyi maksimum dərəcədə artırılsın, bu

[4] BMT BA, 65-ci sess., 1-ci plen., 11-12-ci görüşlər, BMT Sənəd. A/65/PV.1 (23 sent., 2010). Ətraflı bax: http://www.president.az/articles/762/print.

[5] 1820 saylı Qətnamə əsasında BMT baş katibinin məruzəsi, BMT Sənəd. S/2009/362 (15 İyul, 2009).

[66] Sergey V. Lavrov (2005), *Şimal kontekstində Brüsseldə Nazirlərin Görüşü (21 Noyabr, 2005);* Tuomas Forsberg, Hiski Haukkala, The European Union and Russia 288 (2016).

[7] Stephen Gill, Power and Resistance in the New World Order, 12-17 (2003); Anne-Marie Slaughter, *International Law and International Relations Theory: A Dual Agenda*, 87 The American Journal of International Law 205, 235-239 (1993); Robert O. Keohane, *The Promise of Institutionalist Theory*, 20 International Security 39, 39-51.

[8] Laurence Peters, The United Nations History and Core Ideas 59 (2015).

Təşkilatın 60 ildən çox fəaliyyəti zamanı həyata keçirdiyi işlər, proqramlar təhlil edilsin, BMT Nizamnaməsinin müddəalarının tam və istisnasız həyata keçirilməsi, müasir reallıqlar, dünyanın artmaqda olan qarşılıqlı asılılığı və müxtəlifliyi nəzərə alınmaqla, sonda onun yeni səmərəli fəaliyyətinin istiqamətləri üçün təkliflər irəli sürülüb müzakirə edilsin. Etiraf etmək lazımdır ki, BMT 1945-ci ildə yaranmasından etibarən ciddi dəyişikliklər edilmişdir.[9] Lakin onun Nizamnaməsi bu müddət ərzində, demək olar ki, dəyişikliyə məruz qalmamışdır.[10]

Burada ən maraqlı məqam BMT Nizamnaməsinə ediləcək düzəlişlərin və əlavələrin prosedur qaydaların mürəkkəbliyi ilə bağlıdır. Belə ki, Nizamnamənin XVIII fəslində ona dəyişikliklərin edilməsinin iki alternativ proseduru nəzərdə tutulur: ***birincisi,*** Baş Assambleya tərəfindən,[11] ***ikincisi*** isə ona yenidən baxılması üzrə konfrans vasitəsilə.[12] 108-ci maddənin qeydinə görə, Nizamnaməyə düzəlişlər Təşkilatın bütün üzvləri üçün Baş Assambleyanın üzvlərinin üçdə iki səs çoxluğu ilə qəbul edildikdən və TŞ-ın bütün daimi üzvləri daxil olmaqla, Təşkilatın üzvlərinin üçdə ikisi tərəfindən, onların müvafiq konstitusiya qaydalarına uyğun olaraq ratifikasiya edildikdən sonra qüvvəyə minir.[13] 109-cu maddədə isə göstərilir ki, bu Nizamnaməyə yenidən baxılması məqsədilə, Baş Assambleyanın üzvlərinin üçdə iki səs çoxluğu və Təhlükəsizlik Şurasının hər hansı doqquz üzvünün səsi ilə müəyyən edilməli olan vaxtda və yerdə BMT üzvlərinin Ümumi Konfransı çağırıla bilər. Təşkilatın hər bir üzvü konfransda bir səsə malik olacaqdır.

Hər iki maddənin dispozisiyasından göründüyü kimi heç bir düzəliş, yaxud dəyişiklik TŞ-ın bütün daimi üzvlərinin razılığı olmadan reallaşdırıla bilməz.[14] Nizamnamənin müvafiq maddələrinin təhlili belə bir reallığı əks etdirir ki, əsrlər boyu böyük dövlətlər beynəlxalq sistemdə aparıcı mövqeyə malik olmuş və indinin özündə də bu reallıq aktuallığını qoruyub saxlamaqda davam edir. Bir növ bu dövlətlər başqa dövlətlərin hüquqları və maraqları ilə hesablaşmayaraq istədikləri hüququ, o cümlədən beynəlxalq hüququ yaratmaqda və pozmaqda davam edirlər. Havay Universitetinin professoru M. Hassın dili ilə desək, BMT Nizamnaməsinin qəbul edilməsindən sonra bir

[9] Təbii ki, bu dəyişiklik nəzəriyyə və praktikada eyni cür qarşılanmır.
[10] Peters, yuxarıda istinad 8, 70.
[11] BMT Nizamnaməsi və Beynəlxalq Ədalət Məhkəməsinin statutu, mad. 108.
[12] Yenə orada, mad. 109, bənd 1.
[13] Yenə orada, bənd 2.
[14] Yenə orada.

sıra qüdrətli dövlətlər özlərini hüquq yaradıcı və hüquq pozucu kimi aparmağa başlamışlar. Beynəlxalq münasibətlər sistemində böyük dövlətlərin «*güc amilinə*» xüsusi önəm vermələrini xatırladaraq tanınmış britan hüquqşünası Corc Şvarçenberqer qeyd edir ki, «güc beynəlxalq aristokratiyanın iyerarxiyasında suveren dövlətlərin yerini müəyyən edən mühüm faktordur».[15]

Olduqca maraqlı bir məsələdir ki, BMT-nin fəaliyyətə başlamasından indinin özünə kimi onun müxtəlif istiqamətləri üzrə fəaliyyətinin dəyişdirilməsi ilə bağlı müəyyən təkliflər və konsepsiyalar irəli sürülmüş və belə demək mümkünsə, onlardan yalnız Nizamnamənin müddəalarının mahiyyətinə və əsas mənasına toxunmayan prosedur dəyişikliklər Təşkilatın üzvləri tərəfindən maneəsiz olaraq qəbul edilmişdir. Məsələn, Nizamnamənin 23-cü (TŞ-ın tərkibi), 27-ci (TŞ-da səsvermə) və 61-ci (ECOCOK-un tərkibi) maddələrinə düzəlişlər 1963-cü il dekabrın 17-də Baş Assambleya tərəfindən qəbul edilmiş və 1965-ci il avqustun 31-də qüvvəyə minmişdir. 61-ci maddəyə yeni bir düzəliş 1971-ci il dekabrın 20-də Baş Assambleya tərəfindən qəbul edilmiş və 1973-cü il sentyabrın 24-də qüvvəyə minmişdir. Baş Assambleyanın 1965-ci il dekabrın 20-də 109-cu maddəyə qəbul etdiyi düzəliş 1968-ci il iyunun 12-də qüvvəyə minmişdir. 23-cü maddəyə edilmiş düzəlişlə TŞ-ın üzvlərinin sayı 11-dən (on birdən) 15-ə (on beşə) qədər artırılmışdır. 27-ci maddədə nəzərdə tutulur ki, TŞ-ın prosedur məsələlər üzrə qərarları doqquz üzvün (əvvəllər yeddi üzvün) lehinə səs verməsi ilə və bütün digər məsələlər üzrə qərarları, TŞ-ın beş daimi üzvünün uyğun gələn səsləri də daxil olmaqla, doqquz üzvün (əvvəllər yeddi üzvün) lehinə səs verməsi ilə qəbul olunur. 61-ci maddəyə edilmiş və 1965-ci il avqustun 31-də qüvvəyə minmiş düzəlişlə İqtisadi və Sosial Şura üzvlərinin sayı on səkkizdən iyirmi yeddiyə qədər artırılır. Həmin maddəyə sonradan edilmiş və 1973-cü il sentyabrın 24-də qüvvəyə minmiş düzəliş Şuranın tərkibini iyirmi yeddidən əlli dördə qədər genişləndirmişdir. 109-cu maddəyə edilmiş və həmin maddənin birinci bəndinə aid düzəlişdə göstərilir ki, Nizamnaməyə yenidən baxmaq məqsədilə üzv dövlətlərin Ümumi Konfransı Baş Assambleyanın üzvlərinin üçdə iki səs çoxluğu və TŞ-ın hər hansı doqquz (əvvəllər yeddi) üzvünün səsi ilə müəyyən edilmiş vaxtda və yerdə çağırıla bilər. Baş Assambleyanın növbəti onuncu sessiyasında Nizamnaməyə yenidən baxılması ilə bağlı konfransın çağırılması mümkünlüyünü nəzərdə

[15] Georg Schwarzenberger, The Frontiers of International law 302 (1962).

tutan 109-cu maddənin 3-cü bəndi göstərilən sessiya zamanı nəzərdən keçirilmiş və həmin bənddə olan TŞ-nın hər hansı «yeddi üzvünün» səsi ifadəsi öz ilkin redaksiyasında saxlanılmışdır.

Bilavasitə mövcud müddəaların kökündən dəyişdirilməsini, onlara yenidən baxılmasını və onların təkmilləşdirilməsini şərtləndirən təkliflərə gəlincə, burada məsələnin nə vaxtsa parlament dinləmələrinə çatması ehtimalı aşağıdır, ona görə ki, belə həyati əhəmiyyətli məsələlərin müzakirə edilməsi və onların əsas norma kimi Nizamnaməyə daxil edilməsi ziddiyyətli baxışların yaranmasına gətirib çıxarır.[16] Belə ziddiyyətli məqamlara ABŞ, Rusiya Federasiyası, Böyük Britaniya, Fransa və başqa dövlətlərin mövqelərində daha tez-tez rast gəlinir.[17] Xüsusən bu məsələ XX əsrin 90-cı illərində bəşər tarixində baş verən iki mühüm kompleks dəyişikliklər fonunda daha da aktuallaşmağa başlamışdı.[18] Birinci mühüm kompleks hadisə: sosializm sisteminin ləğv edilməsi (Varşava Müqaviləsi Təşkilatının buraxılması, SSRİ-nin, Çexoslovakiyanın və Yuqoslaviyanın dağılması, ABŞ-ın raket əleyhinə müdafiə üzrə 1972-ci il Müqaviləsindən çıxması və s.) ilə müşayiət olunmuşdursa, ikinci mühüm kompleks hadisə isə AFR-ın və ADR-ın vahid Alman dövlətində birləşməsi, ABŞ-ın hərbi-iqtisadi gücünün daha da artması, NATO-nun fəaliyyət sferasının coğrafi region dairəsindən kənara şıxması və s. hadisələrlə bağlı olmuşdur.[19] Baş vermiş bu tarixi proseslər sonda BMT kimi nüfuzlu bir beynəlxalq təşkilatın öz fəaliyyətinə, məqsəd və məramına yenidən baxmağı şərtləndirir. Maraqlı məsələ isə necə və hansı kontekstdə? Yuxarıda vurğulandığı kimi BMT sistemində müasir reallıqlar və çağırışlar kontekstində islahatların aparılması yolunda həm hüquqi, həm siyasi və geopolitik maneələr mövcuddur. Bunu hal-hazırda dünyanın müxtəlif coğrafi regionlarında baş verən silahlı münaqişələr, terror təhlükəsi, iqtisadi böhran vəziyyəti, enerji resursları və nəqliyyat dəhlizləri uğrunda gedən eksponsionist siyasət bir daha sübut edir. Obrazlı şəkildə ifadə etsək, beynəlxalq hüququn, onun universal hüquqi əsası olan BMT Nizamnaməsinin hüquqi məcburilik qüvvəsinin səmərəliliyinin azalmasına, BMT-nin özünün beynəlxalq məsələlərin həllində nüfuzunun

[16] Jochen A. Frowein Riidiger Wolfrum, 3 Max Planck Yearbook of United Nations Law 42 (1999).
[17] Alexandra Xanthaki, Indigenous Rights and United Nations Standards: Self-Determination, Culture and Land 104 (2007).
[18] Yuxarıda istinad 16, 144.
[19] Yuxarıda istinad 1, 9.

aşağalanmasına edilən cəhd, hesab edirik ki, düşünülmüş bir siyasətin gələcəyə köklənmiş konseptual strategiyasıdır.

Hətta bu məsələ ilə bağlı bir sıra ədəbiyyatlarda belə bir fikir səslənir ki, BMT-nin özü, həmçinin onun Nizamnaməsində nəzərdə tutulan əsas prinsip və normalar ilə bağlı olan istənilən beynəlxalq təşkilatın fəaliyyəti və beynəlxalq müqavilənin müəyyən etdiyi öhdəlik heç də məcburi və məqbul sayıla bilməz. Bu mövqeyin tərəfdarları BMT-nin fəaliyyətini və onun Nizamnaməsini «*tabuta qoyulan ölüyə*» bənzədirlər.[20]

Beynəlxalq hüququn beynəlxalq münasibətlərə təsiredici qüvvəsində yaradılan süni böhranın əsas proyekti XXI ilk tarixi dönəmində qoyulmuşdu.[21] 2005-ci ilin sonunda Nyu Yorkda «1968-ci il Nüvə silahının yayılmaması haaqında» Müqaviləyə dair keçirilmiş icmal Konfrans bütün dünya dövlətlərinə göstərdi ki, ABŞ açıqca ikili standartları əldə rəhbər tuturaq beynəlxalq hüquqa belə məhəl qoymadan təhdid siyasəti yürüdür. Belə ki, ABŞ ən güclü silahlı qüvvələrə və nüvə silahına malik olmaqla, istənilən hər hansı dövləti silahlı müdaxilə ilə hədələyə bilər, hansı ki, onun siyasəti «*Amerikanın milli maraqlarına cavab vermir*» və ya həmin dövlətdə «*demokratiyanın vəziyyəti*» «*Amerika demokratiyası*» anlayışı ilə üst-üstə düşmür və nüvə silahına malik olmayan başqa dövlətlər isə 1968-ci il Müqaviləsinə əməl etməli və nüvə silahı yaratmaq hüququndan vaz keçməlidirlər.[22] Bu isə o deməkdir ki, ABŞ özünün milli maraqlarını heç də BMT sisteminə daxil olan dövlətlərin ümumi maraqları ilə eyniləşdirmək fikrində deyildir və əlbətdə ki, burada əsas səbəb BMT-nin öz əvvəlki nüfuzunu itirməsi ilə bağlıdır.

ABŞ bu günkü, yaranmış vəziyyətdən istifadə edərək, (təbii ki, BMT və onun səlahiyyətli strukturlarının kifayət qədər işlək olmaması da buna stimul verir) beynəlxalq terrorizmə müharibə elan etmiş, lakin əslində isə zəngin təbii resurslara malik olan ərazilər üzərində özünün nüfuzunu möhkəmləndirmək kimi geostrateji maraqlarını reallaşdırmaqla məşğuldur.

[20] Andrew J. Bacevich, Washington Rules: America's Path to Permanent War 67-98 (2010); Richard K. Betts, *The Political Support System for American Primacy*, 81 International Affairs 1, 1-14 (2005).

[21] Yuxarıda istinad 17, 210.

[22] Геннадий Михайлович Мелков, Международное право 324-325 (2009).

# III. BMT sistemində islahatlarla bağlı model və konsepsiyalar

Qeyd olunan strateji maraqların və beynəlxalq təhlükəsizliyin təmin olunmasında əsas rol məsələsinə gəldikdə, burada əsas rol heç də BMT-yə aid edilmir. Qarşılıqlı təhlükəsizlik konsepsiyasının tərəfdarları, xüsusən onun «*Kant qolu*» beynəlxalq sülhün və təhlükəsizliyin təmin olunmasında BMT-nin fəaliyyətinin səmərəli olmadığını qeyd edir və təhlükəsizliyin dəyişən mühitində beynəlxalq hüquqi norma və prinsiplərin deyil, humanitar dəyər və ideallar əsasında fəaliyyət zərurəti dayandığını iddia edirlər. Bu modelin tərəfdarları təhlükəsizliyə nail olunmasının əsas vasitəsi qismində NATO-un xüsusi rolunu qiymətləndirirlər.[23] Bu da bir danılmaz reallıqdır ki, bu gün BMT özünün qarşısında duran vəzifələrinin yerinə yetirilməsində o qədər də səmərəli mövqey nümayiş etdirmir. Eyni zamanda, beynəlxalq təhlükəsizlik üçün real qorxu törədən təhlükələrin qarşısının alınmasına və onlarla səmərəli mübarizə aparmağa qadir ola biləcək yeni xüsusi universal qurumun yaradılmasına isə heç lahiyə üzərində də cəhd göstərilmir.

Məhz buna görə də, təhlükəsizlik məsələlərinə həsr olunmuş konsepsiyaların tərəfdarlarının əksəriyyəti NATO-nu müasir təhlükəsizliyin təmin olunmasının əsas qarantı hesab edirlər.[24]

1999-cu ildə NATO-un 50 illiyinin təntənəli surətdə qeyd olunması zamanı Alyansın XXI əsrdə əsas fəaliyyət istiqamətlərinə dair yeni strateji konsepsiyası qəbul edildi. Həmin konsepsiya NATO-un ənənəvi məsuliyyət zonası hüdudlarından kənara nüfuz etməsinə, xüsusən sülhyaradıcılıq fəaliyyətinə, kütləvi qırğın silahlarının yayılmamasına qarşı əks tədbirlər görülməsinə, beynəlxalq terrorizmlə mübarizəyə və s. bu kimi dünyada baş verən proseslərə müdaxilə etməsinə əlverişli imkan yaratdı.[25] Konsepsiya NATO-ya BMT Təhlükəsizlik Şurasının qərarı olmadan belə hərbi qüvvələrdən istifadə etmək hüququ vermişdir. Bu məsələ ilə bağlı London strateji tədqiqatlar İnstitutunun direktoru Corc Çipmen qeyd edir ki, BMT Təhlükəsizlik Şurasının razılığı olmadan belə bir sıra xüsusi hallarda daxili işlərə müdaxilə olunma imkanları mövcuddur. Əgər tutarlı əsas var ki, BMT Təhlükəsizlik Şurası siyasi fikir ayrılığı üzündən qərar qəbul edə bilmir, lakin

[23] Əmir Əliyev, *Beynəlxalq təhlükəsizlik və insan hüquqlarının təminatı məsələləri*, 8 Diplomatiya və hüquq 1, 4 (2007).
[24] Marco Rimanelli, The A to Z of NATO and other International Security Organizations 12 (2009).
[25] Yenə orada, 19.

reallıq bunu tələb etdiyi üçün BMT-dən yan keçməklə bu hərəkəti etmək olar. Sözün həqiqi mənasında BMT çərçivəsindən kənar sülhün və beynəlxalq təhlükəsizliyin qorunub saxlanılmasında NATO-ya birtərəfli qaydada xüsusi səlahiyyətlərin verilməsi, hesab edirik ki, heç də mövcud problemin pozitiv həlli kimi qəbul edilə bilməz. Səbəb isə bu gün dünyanın bir sıra münaqişə ocaqlarında sülh və beynəlxalq təhlükəsizliyin təmin edilməsi, qorunması adı altında NATO qüvvələri tərəfindən coxsaylı müharibə cinayətlərinin, insanlıq əleyhinə cinayətlərin törədilməsi faktları buna misal ola bilər. Əslində NATO sülhün və beynəlxalq təhlükəsizliyin qorunub saxlanılmasında deyil, ABŞ və onun müttəfiqlərinin geosiyasi maraqlarının təmin olunmasında daha çox maraqlıdır. NATO-un geosiyasi strategiyasının intellektual atası hesab olunan admiral Alfred Mexenin dili ilə desək, silahlı qüvvələrin əsas məqsədi-planetar ticari maraqların təmin olunma vasitəsidir.[26]

Müasir dövrdə BMT-nin fəaliyyəti və onun Nizamnaməsinin vəziyyəti ilə bağlı mövcud olan model və ya konsepsiyalardan biri *"Dünya dövlətinin"* yaradılması kontekstində müasir beynəlxalq hüquqa və BMT Nizamnaməsinə yenidən baxmaq konsepsiyası çıxış edir. Bu konsepsiyanın əsas obyekti qismində xüsusi bir hüquq sisteminin "World law" yəni "Dünya hüququ" nun yaradılması çıxış edir. Həmin konsepsiyanın tərəfdarları beynəlxalq hüququn yaradılmasının əsas enerji mənbəsi hesab edilən, siyasi-hüquqi əhəmiyyətə malik olan dövlətlərin suverenliyinin rolunu azaldaraq beynəlxalq münasibətlərin tənzimlənməsinin yeganə və məqbul aləti qismində dövlətüstü (*supranational*) əlamətə malik olan və dünya dövlətinin hüquq sistemi kimi çıxış edən Dünya hüququnun yaradılmasında görürlər. Bu konsepsiyanın tərəfdarları (məsələn, M.Makduqal, Q.Lassvell, M.Berkan, C.Mur, S.Hofman və b.) beynəlxalq hüququ və onun universal mənbəsi hesab olunan BMT Nizamnaməsinin hüquqi məcburiliyini inkar edərək müəyyən xarici siyasət məqsədlərinə nail olunmasında dünya hüququnun özəyini təşkil edən "Rule of force" "Gücün hökmranlığı"-na istinad etməni daha məqsədəmüvafiq hesab edirlər.[27] Bu konsepsiyanın əsasında "güc hüquqdur" maksiması durur. İraq böhranı zamanı BMT-nin üzv-dövlətlərinin məsələyə hüquqi, siyasi, istərsə də geopolitik baxımdan laqeyd münasibət bəsləmələri və ziddiyyətli baxışlarının olması belə bir fikir söyləməyə əsas verir ki, onlar müəyyən mənada "yeni hüququn", demək

[26] Yenə orada, 20.

[27] *McDougal, International Law, Power, and Policy*: A Contemporary Conception, 82-I *Rec.* Des *Cours* 54, 76 (1953).

mümkün olarsa, yeni beynəlxalq hüququn yaranmasına etiraz etmirlər. Ona görə ki, anti-iraq koalisiyası adlanan ABŞ və onun müttəfiqləri öz hərəkətləri ilə müasir beynəlxalq hüquq qaydasını və hüququn hökmranlığını şübhə altına qoymuş oldular. Belə ki, ABŞ beynəlxalq hüququn rolunu heçə endirən və onu yalnız dövlətlər tərəfindən birgə məsələlərin həlli məqsədi ilə tətbiq etməklə məhdudlaşdırılan bir proses səviyyəsinə endirməyə çalışaraq, onu *quid pro qui (birini başqasına)* heç bir beynəlxalq təşkilatın (o cümlədən BMT-nin) ilkin razılığı olmadan hərbi sanksiya ilə müşayiət olunan preventiv tədbirlər də daxil olmaqla güc tətbiq etmək hüququna yol verən yeni təhlükəsizlik konsepsiyası ilə əvəz etməyə çalışır.[28]

Müasir siyasi-hüquqi baxışlarda BMT Nizamnaməsinin ən çox tənqidə məruz qalan maksimalarından biri əsas prinsiplər sistemində müəyyən şəkiyə? malik olan "dövlətlərin suveren bərabərliyi prinsipi" ilə bağlıdır. Bəzi hüquqşünas alimlər və diplomatlar qeyd edirlər ki, bu prinsip real olaraq beynəlxalq hüququn hegemonluğu fonunda bir maneədir. Bu konsepsiyanın tərəfdarları belə bir fikir irəli sürürlər ki, suveren bərabərlik hüquqi prinsip kimi bütövlükdə təkcə hakimiyyətin gücündən deyil, həmçinin onun hüquqi təbiətinin dərk olunmasından da asılıdır (məsələn, Cenis C, Zemanek K, MakDuqal M və b).Beynəlxalq hüquq suverenliyi hakimiyyətin mühüm elementi hesab etməklə, onu bütün dövlətlərin ayrılmaz və immanent atributu hesab edir. Lakin bununla belə, suverenlik heç vaxt beynəlxalq hüquq tərəfindən mütləq hal kimi tanınmamışdır. Onlar öz fikirlərini belə bir faktla əsaslandırmağa çalışırlar ki, BMT Nizamnaməsinin 25-ci maddəsində TŞ-ın qətnamələrinin məcburilik qüvvəsi ilə bağlı dövlətlərin bərabərliyi üçün müstəsna əhəmiyyətli hüquqi məhdudiyyət müəyyən edilmişdir və eyni zamanda, həmin maddədə TŞ-ın daimi üzvləri üçün bu və ya digər aspektdə imtiyazlara əl yeri qoyulmuşdur. Lakin bu konsepsiyanın əksinə olaraq bəzi tədqiqatçılar qeyd edirlər ki, BMT TŞ-da daimi üzvlərin müəyyən imtiyazlara və üstünlüklərə malik olması "dövlətlərin suveren bərabərliyi prinsipi"-nin bir fiksiya olması anlamına gəlməyə əsas vermir. Səbəb isə ondan ibarətdir ki, bu gün real olaraq heç bir qüvvə beynəlxalq hüquq qaydasının enerji mənbəsi olan suveren dövlətlərin beynəlxalq münasibətlərdə oynadığı rolu öz üzərinə götürüb təkbaşına hərəkətə gətirmək iqtidarına malik deyildir.[29]

[28] NATO office of international and press, The Alliances strategic concept (November 8, 1991). Daha ətraflı: https://www.nato.int/cps/ua/natohq/official_texts_23847.htm

[29] *Игорь Иванович Лукашук*, Международное право 50-51 (2005).

BMT-nin fəaliyyətinin təkmilləşdirilməsi işinin pozitiv istiqamətdə həyata keçirilməsinə dair mühüm konsepsiyalardan biri-beynəlxalq münasibətlərdə «*Rule of Law-Hüququn hökmranlığı*»-nın təsbit edilməsidir.[30] Hüququn hökmranlığı konsepsiyasının banisi Oksford Universitetinin professoru Albert Venn Daysidir. Beynəlxalq hüquqda qeyd olunan konsepsiyanın əsas məqsədini: beynəlxalq münasibətlərdə hüququn nüfuzunu təmin etmək; dövlətlərin fəaliyyətinin bütün aspektlərində beynəlxalq hüququn normalarının dönmədən əməl edilməsinə köməklik göstərmək təşkil edir. Beynəlxalq münasibətlərə hüququn hökmranlığı konsepsiyasının hansı komponentləri və real istiqamətləri daxil edilə bilər? *Birincisi*, beynəlxalq münasibətlərdə hüququn hökmranlığına nail olma ilk növbədə dövlətlərin öz üzərlərinə götürdükləri beynəlxalq öhdəlikləri nə dərəcədə riayət etmələrinə sözsüz hazır olmalarından asılıdır; *ikincisi*, dövlətlərarası səviyyədə, xüsusən, BMT çərçivəsində beynəlxalq hüquq qaydasının təkmilləşdirilməsi prosesinə stimul verən bir sıra tədbirlərdə: dövlətlərin hüquq yaradıcılığı və hüquq tətbiq etmə mərhələsində ədalətli iştiraklarına şərait yaratmaq, baş vermiş mübahisələrin və situasiyaların nizamlanmasında dinc vasitələrin rolunu artırmaq; *üçüncüsü*, BMT və onun əsas orqanları da daxil olmaqla, bütün beynəlxalq təşkilatların rolunun artırılması istiqamətində əhəmiyyətli inistitusional islahatların aparılması.[31]

Ədalət naminə qeyd edək ki, beynəlxalq hüquq normalarının qarşısında duran məqsədlərə, ümumi planda olsa da, nail olunur. Məsələn, BMT və onun Nizamnaməsinin yenidən təftiş edilməsinin əsas tərafdarlarından olan Amerikalı hüquqşünas L. Son bu Təşkilatın fəaliyyət göstərdiyi gündən indiyədək olan müqavilə təcrübəsini ümumiləşdirərək belə bir maraqlı fakta toxunur ki, 1945-ci ildən indiyə kimi BMT-nin himayəsi altında 20000 min müqavilə imzalanmış və qəbul edilmiş və onlardan 19900 dəqiq icra edilmişdir.

## Nəticə

Yekun olaraq qeyd etmək istərdik ki, BMT-nin rolunun yüksəldilməsi beynəlxalq hüququn möhkəmləndirilməsinin və mütərəqqi inkişafının keyfiyyətcə yeni perspektivlərini açır. Təbii ki, bu gün BMT-nin fəaliyyəti 60 il bundan əvvəlki fəaliyyət deyildir. Bu nüfuzlu Təşkilat çərçivəsində yenidənqurma işlərinə start vermək üçün ilk növbədə onun keçmiş fəaliyyəti

[30] Heiko Meiertons, The Doctrines Of Us Security Policy An Evaluation Under International Law 8 (2010).
[31] Jeremy Matam Farrall, United Nations Sanctions and the Rule of Law 10 (2007).

diqqətlə araşdırılmalı, təsis aktında təsbit olunmuş normalara dövlətlər tərəfindən hansı qaydada əməl edib-etməmələri aydınlaşdırılmalıdır. BMT sistemində islahatlarla bağlı yuxarıda qeyd etdiyimiz konsepsiya və modellərin hər birisinin məğzində bir həqiqət durur: hansı dəyişiklilik olursa olsun, o mənim mənafeyimə cavab versin. BMT sisteminin təkmilləşdirilməsi ilə bağlı irəli sürülən və ya təklif edilən təkliflər, modellər və ya konsepsiyalar tamamilə bir-birilərinə ziddiyyət təşkil edir. Əgər bir model beynəlxalq hüququn özünün səmərəli olmamsını iddia edirsə və BMT-nin tamamilə ləğv edilməsinin tərafdarıdırsa, bir sıra konsepsiya və modellərin tərəfdarları isə onun fəaliyyətini öz məqsədlərinə müvafiq adaptasiya olunmasında maraqlıdırlar, digərləri isə özlərinin təminatlı təhlükəsizliklərini əldə etdikdən sonra onun Nizamnaməsinə yenidən baxmağı təklif edirlər. Vurğulamaq istərdik ki, söhbət burada ayrı-ayrı təkliflərdən gedir, onların paket formasında birləşdirilməsi çox güman ki, yaxın gələcəkdə mümkün olmayacaq.